# Azərbaycan, Qazaxıstan, Özbəkistan AİB və AİİB ilə "Xəzər Yaşıl Enerji Dəhlizi" üzrə əməkdaşlıq edəcəklər

**Bakıda "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" Məşvərət şuralarının iclasları çərçivəsində "Azərbaycan Respublikasının Energetika Nazirliyi, Qazaxıstan Respublikasının Energetika Nazirliyi, Özbəkistan Respublikasının Energetika Nazirliyi ilə Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı arasında Anlaşma Memorandumu"nun imzalanması mərasimi olub.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan, Qazaxıstan, Özbəkistanın energetika nazirləri tərəfindən imzalanmış sənədə AİB və AİİB-in təmsilçiləri də qoşulub.

Bu memorandum Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının (TİƏ) birinci mərhələsini dəstəkləmək məqsədilə əməkdaşlığı nəzərdə tutur.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov deyib: "Azərbaycan, Özbəkistan və Qazaxıstanın enerji sistemlərinin birləşdirilməsi strateji və tarixi əhəmiyyətli layihədir. "Xəzər Yaşıl Enerji Dəhlizi" təşəbbüsümüzə AİB və AİİB-in qoşulması layihənin icrasında mühüm irəliləyişlərdən biridir. Birgə əməkdaşlığımız layihənin texniki-iqtisadi tədqiqatlarına tezliklə başlamağımızı təmin edəcək. Bu regional "yaşıl enerji" təşəbbüsü sayəsində Azərbaycanla Mərkəzi Asiya ilk Trans-Xəzər enerji dəhlizini reallaşdırmış olacaq".

Qazaxıstanın energetika naziri Erlan Kudaybergenoviç Akkenjenov qeyd edib ki, yaşıl dəhliz layihəsi kimi birgə təşəbbüslər regionun enerji sistemlərini gücləndirmək, "yaşıl texnologiyalar"ı təşviq etmək və ekoloji təmiz elektrik enerjisinin davamlı ixracını təmin etmək əzmimizi nümayiş etdirir: "Birlikdə biz enerjinin təkcə bir resurs deyil, həm də davamlı inkişaf və sabitliyin təməli olduğu bir gələcək yaradırıq".




Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudov bildirib ki, Qazaxıstan, Özbəkistan və Azərbaycan arasında yaradılacaq Yaşıl Enerji Dəhlizi Mərkəzi Asiyanın bərpaolunan enerji potensialını Avropa ilə birləşdirən etibarlı və dayanıqlı körpüyə çevirən mühüm əməkdaşlıq nümunəsidir: "Bu layihə "yaşıl gələcək" qurmaq, iqtisadi artımı təşviq etmək və uzunmüddətli enerji təhlükəsizliyini təmin etmək istiqamətindəki öhdəliyimizi əks etdirir".

AİB-in Mərkəzi və Qərbi Asiya Departamentinin baş direktoru Yevgeni Jukov deyib: "Xəzər Yaşıl Enerji Dəhlizi" təşəbbüsü üç ölkə və AİB üçün strateji prioritetdir. Bu təşəbbüs çoxsaylı regional problemlərin həlli ilə yanaşı, təmiz enerji infrastrukturu sahəsində transsərhəd əməkdaşlığın inkişafı üzrə missiyamızın həyata keçirilməsinə birbaşa töhfə verir. Memorandumun imzalanması Azərbaycan, Qazaxıstan və Özbəkistan, eləcə də Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı arasında əməkdaşlıq əlaqələrimizdə həlledici bir mərhələdir. Bu, mövcud yanaşmamızı transformativ bir regional təşəbbüsə çevirmək üçün kollektiv öhdəliyimizi əks etdirir".

AİİB-in nümayəndəsi Hong Vey vurğulayıb ki, Asiya İnfrastruktur İnvestisiya Bankı "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasında Azərbaycan, Qazaxıstan, Özbəkistan hökumətləri və Asiya İnkişaf Bankı ilə əməkdaşlıqdan məmnundur. Bu layihə Mərkəzi Asiyanın böyük təmiz enerji potensialının üzə çıxmasına imkan verəcək, Azərbaycan isə Mərkəzi Asiyadan Avropaya təmiz enerji axını üçün bir qapı kimi mühüm rol oynayacaq.

Xatırladaq ki, "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" dövlət başçıları tərəfindən 2024-cü il noyabrın 13-də COP29 çərçivəsində imzalanıb.

Azərbaycan. - 2025.-6 aprel (№ 66).- S.4.